# 1. Ümumi müddəalar.

**1.1.** “ASC “Xalq” Bankında “Cash by Code” xidmətindən istifadə üzrə Təlimat” (bundan sonra Təlimat) kart hesabından pul vəsaitlərinin göndərilməsi və nağd şəkildə alınması üzrə “Cash by code” xidmətinin imkanlarını və ondan istifadə qaydalarını müəyyən edir.

**1.2.** “Cash by code” xidmətinin təsviri (bundan sonra “Xidmət”) - ATM və “Mobil Bank” xidməti vasitəsilə kart hesabından köçürülmüş pul vəsaitlərinin ödəniş kartından istifadə edilmədən ATM-dən nağd şəkildə məxaric edilməsini təmin edən xidmət.

**1.3.** Xidmət yalnız “Azericard” prosessinq mərkəzinin xidmət göstərdiyi ATM-ləri və ödəniş kartlarını əhatə edir.

**1.4. Xidmətin üstünlükləri:**

- Günün istənilən saatında pul vəsaitlərinin göndərilməsi və nağd şəkildə əldə olunması imkanı;
- ATM-dən istifadə etmədən “Mobil Bank” xidməti vasitəsilə pul vəsaitlərinin göndərilməsi;
- Banka müraciət etmədən və ödəniş kartından istifadə etmədən pul vəsaitlərinin xüsusi kod daxil etməklə ATM vasitəsilə nağd şəkildə məxaric edilməsi;
- Uzaq məsafədə olan və ödəniş kartı olmayan şəxslərə ATM və “Mobil Bank” xidməti vasitəsilə pul vəsaitlərinin dərhal göndərilməsi.

**1.5.** Xidmətdən istifadə etməklə göndərilən pul vəsaitləri üzrə birdəfəlik maksimal məbləğ 500 AZN/USD təyin olunur. Xidmət vasitəsilə bu bənddə göstərilən valyutalardan fərqli hər hansı digər valyutada əməliyyatların keçirilməsi mümkün deyil.

**1.6.** Bu Xidmətə görə komisyon haqları ASC “Xalq” Bankının qüvvədə olan Tariflərinə əsasən tutulur.

**1.7.** Xidmət üzrə komisyon haqqı pul vəsaitlərini göndərən şəxsin kart hesabından (bundan sonra “Hesab”) əməliyyat zamanı tutulur. Göndərilən pul vəsaitlərinin valyutası kart hesabının valyutasından fərqli olduqda, əməliyyat üzrə konvertasiyaya görə komisyon haqqı da Hesabdan tutulur.

**1.8.** Əməliyyat həyata keçirildiyi anda Hesabda komisyon haqqı daxil olmaqla, əməliyyatın məbləği həcmində pul vəsaitləri bloklaşdırılır.

Pul vəsaitləri Xidmətdən istifadə edilməklə göndərildiyi andan 24 saat ərzində ATM-dən məxaric edilmədikdə, həmin əməliyyat ləğv olunur.Əməliyyat ləğv olunduqda, Hesabda bloklaşdırılmış pul vəsaitləri (komisyon haqqı daxil olmaqla) növbəti 24 saat ərzindəblokdan çıxarılır.

## 2. ATM vasitəsilə pul vəsaitlərinin göndərilməsi qaydası.

**2.1.** Kart istifadəçisi ATM-ə ödəniş kartını daxil edərək, müvafiq dili seçir:




**2.2.** Dili seçdikdən sonra, ödəniş kartının PİN-kodunu daxil edir:




**2.3.** Əsas menyuda "Cash by code" bölməsini seçir:



**2.4.** “Cash by code” menyusunda “Pul göndərmək” bölməsini seçir:




**2.5.** Pulu alan şəxsin mobil nömrəsini daxil edir:




**2.6.** Mobil nömrəni təkrar daxil edir:



**2.7.** İstədiyi valyutanı seçir:




**2.8.** Göndərmək istədiyi məbləği daxil edir:




**2.9.** Növbəti menyuda məbləği təsdiq edir:




## 3. ATM və mobil telefon vasitəsilə kodların əldə edilməsi qaydası.

**3.1.** Əməliyyat təsdiq edildikdən sonra sistem iki hissədən ibarət kod formalaşdırır, onun birinci hissəsi ATM vasitəsilə çek üzərində çap olunur və pul göndərən şəxsdə qalır, ikinci hissəsi isə SMS vasitəsilə pulu alan şəxsin mobil nömrəsinə göndərilir.

**3.2.** Kodun birinci hissəsini pul göndərən şəxs istədiyi şəkildə pulu alan şəxsə çatdıra bilər. Bu kod yalnız 24 saat aktiv olur.

## 4. “Mobil Bank” xidməti vasitəsilə pul vəsaitlərinin göndərilməsi qaydası.

**4.1.** “Mobil Bank” xidmətindən istifadə etməklə pul vəsaitlərinin göndərilməsini həmin xidmətə qoşulmuş kart istifadəçiləri həyata keçirə bilər. Pul vəsaitlərini göndərən şəxs mobil telefonun menyusunda “Mobil Bank”bölməsinə daxil olaraq “Cash by code” əməliyyatını seçir:




**4.2.** Köçürmənin valyutasını və məbləğini daxil edir:



**4.3.** Daxil olunmuş məlumatları təsdiq edir:




**4.4.** Bundan sonra mobil telefonun ekranında bir hissədən ibarət olan kod yaradılır. Həmin kod bərpa olunmur və onu yadda saxlamaq lazımdır. Bu kod yalnız 24 saat aktiv olur.




**4.5.** Pul vəsaitlərini göndərən şəxs həmin kodu pulu alan şəxsə istədiyi şəkildə çatdıra bilər. \

## 5. ATM-dən pul vəsaitlərinin nağd şəkildə alınması qaydası.

**5.1.** Pul vəsaitlərini alan şəxs ATM-ə yaxınlaşıb, monitorun yuxarı sağ küncündəki düyməsini basdıqdan sonra “Cash by code” bölməsini, bunun ardınca müvafiq dili seçir:




**5.2.** Pulu göndərən şəxsdən əldə etdiyi kodun birinci hissəsi ilə mobil nömrəsinə gələn SMS-də olan kodun ikinci hissəsini birlikdə daxil edir. Əgər pul Mobil Bank vasitəsilə köçürülübsə, alan şəxs göndərən şəxsdən alınan və bir hissədən ibarət olan kodu ATM-ə daxil edir.




**5.3.** Pul vəsaitlərinin göndərildiyi valyutanı seçir:



**5.4.** Məbləği daxil edərək, pul vəsaitlərini ATM-dən çıxarır:




**5.5.** Pul vəsaitlərinin nağd şəkildə çıxarılması yalnız göndərildiyi valyutada və məbləğdə həyata keçirilə bilər.